Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET



# Sahil qəsəbəsində yerləşən 66 saylı ƏPT-də YAP fəalları ilə görüş keçirilib









**Dünən Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq Qaradağ rayonunun Sahil qəsəbəsində yerləşən 66 saylı Ərazi Partiya Təşkilatının bir qrup fəalı ilə görüşüb. Yığıncaqda Bos ŞELF MMC-nin YAP üzvü olmayan əməkdaşları da iştirak ediblər.**

**Tədbiri 66 saylı ƏPT-nin sədri Cavanşir Əliyev** açaraq ölkəmizin çox mühüm tarixi günlər yaşadığını, ordumuzun Qarabağın işğalı davam edən bir sıra ərazilərində aparılan antiterror əməliyyatları nəticəsində separatçı qüvvələri tamamilə tərksilah edildiyini xatırladıb.

O, qeyd edib ki, qondarma rejimin özünü buraxması xalqımız tərəfindən böyük sevinclə qarşılanıb. Həm 44 günlük Vətən müharibəsində, həm də cəmi 23 saat davam edən antiterror əməliyyatında əldə edilən möhtəşəm qələbənin kökündə xalqımızın Ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf xətti və bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır.

Tədbir barədə məlumat verən C.Əliyev bildirib ki, YAP fəalları ilə təşkil edilən bu görüş rayon təşkilatı ilə ƏPT-lər arasında ələqələrin inkişafına, partiya üzvlərinin qarşılaşdığı problemlərin öyrənilməsi, bunların həlli ilə əlaqədar müvafiq qurumlar qarşısında məsələnin qaldırılması və həllinə nail olunması məqsədi daşıyır.

**Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev** Bos Şelf MMC-nin kollektivini bu qələbə münasibəti ilə təbrik edib. O, bildirib ki, sürətli iqtisadi inkişafa nail olan Azərbaycanın uğurlarının əldə edilməsində, cəmi 44 gün davam edən Vətən müharibəsində və antiterror əməliyyatında qazanılan böyük Zəfərdə Azərbaycan Prezidenti İlham Əliyevin sədri olduğu YAP ən fəal rol oynayıb.

Cari ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olduğunu xatırladan YAP rayon təşkilatının sədri Azərbaycan xalqının bu siyasi kursu dəstəkləməsi nəticəsində çox möhtəşəm qələbələrə imza atdığını bildirdi. Q.Əliyev Azərbaycanın Qarabağda apardığı lokal antiterror əməliyyatının mahiyyəti, bununla əlaqədar beynəlxalq aləmdə və ölkə daxilində baş verən son hadisələr, YAP-ın VII qurultayından sonrakı dövrdə partiyada aparılan islahatlar, Prezident, YAP sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində əldə olunmuş Böyük Zəfərin əhəmiyyəti, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq və bərpa işləri, köçkünlərin doğma ata-baba yurdlarına qayıdışı, Qərbi Azərbaycan icmasının fəaliyyəti və digər məsələlərdən bəhs edərək görüş iştirakçılarını partiyanın siyasətinin həyata keçirilməsində daha fəal iştirak etməyə çağırıb.

Rayon təşkilatının sədri görüş iştirakçılarını müzakirə edilən məsələlərə fəal şəkildə qoşulmağa, onları maraqlandıran və narahat edən məsələlər barədə açıq danışmağa, baş verən son tarixi hadisələrə münasibət bildirməyə, onları düşündürən məsələlər barədə suallar verməyə çağırıb.

Yığıncaq iştirakçıları YAP Qaradağ rayon təşkilatı sədrinin çıxışını diqqətlə dinləyərək səslənən fikirlərlə razı olduqlarını bildiriblər. Görüşdə çıxış edən 66 saylı Ərazi Partiya Təşkilatının üzvləri dövlətimizin yeritdiyi daxili və xarici siyasətdən, Qarabağda aparılan antiterror əməliyyatından tam razı qaldıqlarını, istənilən an dövlətimizin başçısının ətrafında bir yumruq kimi birləşməyə hazır olduqlarını bildiriblər. Onlar partiya fəalları ilə belə görüşlərin tez-tez keçirilməsinin zəruriliyini də vurğulayıblar.

**Görüşdə çıxışçılar tərəfindən irəli sürülən təklif və problemlər qeydə alınıb.**

**Rəşad ŞİRƏLİYEV**